**Xaqani, Ş.** Parçalar / X. Şirvani // Ədəbiyyat qəzeti.-2013.- 1 fevral.- S.3.

## Parçalar

Buna Xaqaninin halı, onun Abxazə ezamı
Necə çox oxşayır, bir bax, necə dövr eləyir dövran.
Olub Abxaz ona məğrib, şahın dərgahı bir dərya,
Zavallı canı bir tük iək düşüb qalmış ora nalan…

Bu Kür Ceyhun olar, Tiflis Səmərqəndi qoyar dalda,
O vəqt ki, Tiflisə Kürlə gələr Xaqani və xaqan.

## Rübailər

Ağüzlü, qıvrımsaç qızın eşqindən
Gürcücə öyrəndim Abxaziyada mən;
İncəldi tük kimi dilim, hər tüküm
Dönüb bir dil oldu "modi" deməkdən.
Tərsa gözəlisən, İsaya həmdəm,
Pak ruhsan sənə demərəm sənəm;
Tük kimi incəldim dərdü-qəmimdən,
"Modi, modi" qəmdən muyə dönmüşəm.